# Erkən dünyagörüşdə qadın metaforası

**Arzu Vaqif qızı Əliyeva**
*AMEA Folklor İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** aliyeva92@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. A.H. Hüseynova,
filol.ü.f.d., dos. S.A. Xavəri

**Açar sözlər:** qadın, konseptual metafora, mif, psixososial semantika
**Ключевые слова:** женщина, концептуальная метафора, миф, психосоциальная семантика
**Key words:** woman, conceptual metaphor, myth, psychosocial semantics

Qadın tarixin bütün mərhələlərində daim diqqət mərkəzində olmuş, zaman keçdikcə isə bir çox tədqiqatların araşdırılma və öyrənilmə obyektinə çevrilmişdir. Tənqidçilərin gəldiyi qənaətlərə əsasən demək olar ki, sözügedən araşdırmalarda Qərbi Şərqdən üstün tutmaq, mədəni xalqlar sırasında yalnız Avropanı tədqiqat obyektinə çevirmək yanlış olan birtərəfli yanaşmanın göstəricisidir. Bu nöqteyi-nəzərdən tədqiqatımızda türkdilli arxaik folkor mətnlərində, xüsusən mif və inanclarda qadınlarla bağlı metaforalar psixososial aspektdən araşdırılmaya cəlb ediləcəkdir. Lakin qeyd etmək lazımdır ki, dünyada qadınlarla bağlı olan tarixi-mədəni fikrə bələd olmadan milli şifahi xalq ədəbi nümunələrindəki obrazların etno-psixoloji mahiyyətini başa düşməyimiz imkansızdır.

Qeyd etmək olar ki, qadınların erkən dövrdən etibarən hansı spesifik xüsusiyyətlərə sahib olduğu miflərdə açıq şəkildə nəzərə çarpır. Məhz buna görə də qədim türk eposunda, töröniş və yaradılış dastanlarında, türkün dünyaya gəlmə rəvayətlərindəki qadın obrazların öyrənilməsinin ilkin yolu miflərdən başlayır. Məlumdur ki, milli özünəqayıdışda mifoloji biliklər əsas yolgöstərici obyektdir. Tədqiqatçıların da qeyd etdiyi kimi, “mif” erkən etnosun dünyanın yaranması, inkişafı, sonu barəsindəki bədii düşüncəsidir. Nail Qurbanova görə isə, mif dünyanın fantastik izahıdır, müasir dünya insanlarının malik olduğu tarixi şüur baxımından mif mətnləri gerçəkliyin həqiqi obrazı kimi qəbul olunmur, lakin məsələyə yanaşmanın bütün mahiyyəti onda ifadə olunur ki, miflərdəki “fantaziya” mifoloji çağ insanının gerçəklik aləmindən qavraya bildikləri, yəni onlara məxsus dünyaqavramı üsulunun nəticəsidir (4, s. 9). Dünyanın yaranması haqqında olan miflərə nəzər yetirəndə, ayrı-ayrı xalqların erkən düşüncəsi haqqında məlumat almaq mümkündür. Lakin bəzi mif modelləri də vardır ki, onlar bir çox dünya xalqları üçün ortaq mahiyyətli fikir məhsulu kimi diqqəti cəlb edir. “Mif” termininin elmdə iki mənada başa düşüldüyünü nəzərə almaq lazımdır: mif şüur tipi kimi; mif mətn kimi (3, s. 180). Mif şüur tipi kimi dedikdə biz unutmamalıyıq ki, “şüur”- psixika kimi beyinin funksiyasıdır və obyektiv aləmin insana xas inikasıdır. Şüur obyektiv aləmin beyində ideal inikasıdır ki, onun fərdi və ictimai formaları vardır. Fərdi şüur – bir insana xas olan ideyalar, baxışlar sistemidir. İctimai şüur isə müəyyən insan qrupuna xas olan ideyalar, baxışlar sistemidir. Şifahi xalq ədəbiyyatına aid olan, bir sıra mifoloji ruhlu əsərlərdəki qadınların davranış və yaşayış modelində mif mətn olmaqla qalmamış, eyni zamanda mifoloji şüur tipi kimi sərgilənmişdir. Bu yanaşmanı müasir ədəbi kontekstdə tədqiq olunan metafora anlayışı ilə də əlaqələndirmək olar:

— Metafora ancaq dil ilə yox, düşüncə ilə əlaqəli bir anlayışdır;

— Metafora ritorik bir vasitə olmayıb dünyanı mənalandırmağımıza şərait yaradan idrakı bir mərhələdir;

— Metafora yalnızca oxşarlıq əlaqəsinə söykənməyən düşüncə tərzidir (8, s. 16).

Konseptual metafora anlayışına görə, metafora dil hadisəsi olmaqla yanaşı, idraki-psixoloji məna və məzmun keyfiyyətinə də məxsusudur. Buradan belə qənaətə gələ bilərik ki, mif və müasir metafora anlayışı arasındakı bənzərliklər ötəri mahiyyətli olmayıb, birbaşa həm fərdi insan idrakına, həm də kollektiv psixoloji təfəkkürə söykənməkdədir. Həmçinin qeyd etmək olar ki, mif və metaforaya aid olan idrakı əlaqə, psixososial düşüncə yalnızca tarixi mahiyyətli olmayıb günümüzün təfəkkür tərzinin də ifadə formalarındandır. Mifin gündəlik həyatımızın vacib bir hissəsi olduğu fikri çox vaxt fərziyyə deyil, aksioma kimi qəbul edilmiş, miflərin psixoloji aspektlərinin mövcudluğu məsələsinə diqqət çəkilmişdir (15). "Мифологии" (14) və "Истина мифа" (16) kimi araşdırmalar da bu mövqenin formalaşmasında öz töhfəsini vermişdir.

Araşdırmamızın digər qütbündə isə qadın obrazına aid edilən metaforanın psixososial semantikası məsələsi dayanır. Analitik psixologiyanın banisi sayılan Yunq öz düşüncələrində qeyd edirdi ki, "uzun bir müddət "qadın" sözü mənə, təbii saydığım "güvənilməyəni", bunun qarşılığında isə "ata" sözü "güvəniləni" xatırladırdı. Daha sonralar bu ilk təəssüratlarım əksini ifadə etdi. Kişilərə inandım, ancaq xəyal qırıqlıqları yaşadım. Qadınlara inanmadım, ancaq xəyal qırıqlıqlarına da uğramadım" (9, s. 23-26). Həmçinin Yunq insan psixologiyasını bütün elm və sənət sahələrinin ana bətni şəklində ifadə edir (11, s. 332). Bu nöqteyi-nəzərdən, psixososial semantikanı qadın-mif-metafora anlayışlarına aid olan əsas meyar hesab etmək olar.

Təxminən 5 min ilə yaxın tarixi olan türk etnoslarındakı dünyagörüş və sosial baxışlara aid məqamların böyük bir hissəsinə erkən söz sənəti qaynaqlarında rast gəlmək olar. Belə ki, milli düşüncənin erkən qatına nəzər salmaq, qadınlara aid ilkin mülahizələri sistemləşdirmək, tarixin ayrı-ayrı səhifələrində qadın obrazlarının psixososial meyl və xarakterik cizgilərini öyrənmək üçün folklor mətnləri ən mötəbər mənbələr hesab edilmişdir. Qədim türk əsatirlərinin ayrılmaz hissəsi olan Azərbaycan mifologiyasınıda qadınlarla bağlı olan mifləri, sujetləri araşdırarkən ümumtürk yaradıcılığına müraciət etmək, onları əlaqələndirmək və aralarındakı qarşılıqlı təsirləri öyrənmək lazımdır. Tədqiqatçılar da təsdiq etmişlər ki, Azərbaycan mifologiyası qədim türk ədəbi qaynaqlarından bəhrələnib, ondan qopub ayrılan və azərbaycanlılara məxsus estetik idealı ifadə edən mifik düşüncədir. İstər ümumtürk, istərsə də birbaşa Azərbaycan folklorundakı qadın obrazları və ya qadınlıqla bağlı olan modellər şifahi xalq ədəbiyyatının bu erkən nümunələrində özünəməxsus xüsusiyyətlər ilə görünməyə başlayır.

Tədqiqatda qadın simalarının və onların timsalında təcəssüm olunan qadın metaforasının psixososial araşdırılması və təhlili "Arxaik totemistik görüşlərlə bağlı olan qadın metaforası" istiqamətdə aparılacaqdır.

İstər dini, istərsə də nəzəri elmlərə görə dünya heçlikdən, boşluqdan, nizamsızlıqdan, yəni xaosdan yaranmışdır. Xaosdan yaranmış dünyanın sakini olan insan isə yaşadığı həyat boyunca xaosa meylli olmuş, olum və ölüm arasında xaosla mübarizə apararaq nizamlı həyat üçün çalışmışdır. İnsan öz davranış və düşüncələrini idarə etməyin mürəkkəbliyini dərk edərək özündən daha güclü bir varlıq tərəfindən idarə olunduğu qənaətinə gəlmişdir. Bəşəriyyət tarixinin ilkin mərhələsində bu tabe olma instinkti totemistik dünyagörüş şəklində təzahür etmiş və insan gözü ilə görüb dərk edə bilmədiyi mövcudluğa sitayiş etmişdir. Biz bu kimi dini təfəkkür tərzinə qədim türk mifologiyasında da rast gəlirik. Belə ki, qədim türk mifologiyasına əsasən yuxarıda Göy, aşağıda Yer yarandıqdan sonra onların arasında insan övladı yaradıl-

mışdır. Günəş qədim türk xalqları işərisində ilahi məzmuna malik olmuşdur. Araşdırmalara əsasən demək olar ki, böyük türk xalqlarından olan atarlar və albanlar Günəşə sitayiş etmişdirlər.

Hunlar isə elə hesab edirdilər ki, onların hökmdarlarını taxta gətirən güc Günəş olmuşdur. Bəzi xalqlar Günəşə abidə qoymuş, bəziləri məbəd tikdirmişlər. Eyni zamanda o, insanla, insani xüsusiyyətlərlə bağlı hesab olunmuşdur. Kosmoqonik miflərdə Günəş müqəddəs, fövqəltəbii varlıq kimi xarakterizə edilmiş və bir növ obrazlaşdırılmışdır. Demək olar ki, obrazlaşdırılan bu güc çox zaman qadını, qadınlığı təmsil etmişdir. Qədim insanlar Günəşin yaradıcı, qoruyucu xüsusiyyətlərini primitiv də olsa dərk etmişlər və bu dərk etməni müəyyən xarakterdə izah etməyə çalışmışlar.

Elə indinin özündə də Günəş türk xalqlarında və Azərbaycan xalqında işıq və istilik mənbəyi kimi həyat verən müqəddəs varlıq hesab olunur. Bəzi şumer-türk və misir folklorunda dünyanın yaranması, dünya-yaradılış-qadın anlayışı haqqında olan bəzi miflərdə Günəş doğa bilmək xüsusiyyətinə sahibdir. Sözsüz ki, Günəşlə bağlı miflərdə "qadınlıq" simvolikdir, yəni, yeri gəldikdə o kişinin sərgiləyə bildiyi fəlsəfi mahiyyəti də ehtiva edə bilər. Bütün bunlar onu deməyə əsas verir ki, həm şifahi xalq yaradıcılığımızda, həm də yazılı ədəbiyyatımızdakı Günəş və Ay obrazları təsadüfi olmayıb, məhz mifoloji köklərə malikdir. Çünki insan taleyi və həyatı haqqında ilkin fikir xalqın kosmoqonik təsəvvürləri vasitəsilə təzahür olunmuşdur. Konseptual metafora tədqiqatlarında metaforaların "vurğulamaq və gizləmək" kimi xüsusiyyətləri onun idraki mahiyyətinin göstəricisi kimi qəbul edilmişdir (13, s. 78). Biz Günəş vasitəsilə də qadına aid olan xüsusiyyət və keyfiyyətlərin təcəssümü və gizlədilməsinin şahidi oluruq.

*"Günəş və ay haqqında əfsanə"də* (7, s. 244) Günəş adlı gözəl bir qızla Ovçu arasındakı münasibətdən söhbət açılır. Günəş əfsanənin əvvəlində insan-qadın kimi təsvir olunur, yəni hələ kosmoqonik mahiyyət daşımır. O, Ovçunun evində qalmasına baxmayaraq, Ovçu qıza yaxınlaşıb sevgisini etiraf etmək gücünü özündə tapmır, çünki Günəşdən süzülən işıq ox kimi insanın gözünə sancılır. Ovçu qıza yaxınlaşa bilməyəcəyini dərk edib, Günəşin gözəlliyini hamıya car çəkir. Sonda qonşuluqda olan bir kişi onu tutmaq üçün qızı ox ilə vurur. Atılan ox Günəşi sinəsindən yaralayır. Günəş yaralı-yaralı qaçır. Günəş göyün üst qatına qalxır və donundakı qan izləri qurşaq şəklində göyün üzündə yağışdan sonra görünür.

Ovçu tutduğu işdən peşman olur, lakin Günəşə çata bilmir. Əfsanənin sonunda Ovçunun əslində Ay olduğu deyilir. Ay Günəşlə görüşüb günahını boynuna almaq, üzr istəmək üçün çalışır, ancaq təəssüf ki, Günəşlə Ay bir daha birgə ola bilmirlər.

*"Ay və Günəş"* (7, s. 244-245) haqqında digər bir əfsanədə yenə Günəş "qadınınlığ"ı təmsil edir. Deyirlər, Ay və Günəş bacı-qardaş imiş. Bir gün onların anaları yuxa bişirmək üçün hazırlıq görürmüş. Anası Ayı səsləyir ki, oxlovu gətirsin. Ay oxlovu gətirmir, deyir: - Günəş gətirsin. Günəş və Ay bir-biri ilə savaşır. Bu zaman ana sacı külləyirmiş. Ana acıqlı-acıqlı durur və Ayın üzünə bir sillə vurur. Ay tutduğu işdən peşman olur. Günəş isə bu hadisədən çox qorxur. Hər ikisi evdən qaçıb gedirlər. Bundan sonra deyilir ki, Günəşin günahı olmadığı üçün, o, gündüz, Ay isə utandığından gecələr çıxır.

Nümunə gətirilən hər iki əfsanədə Günəşdə təcəssüm olunan qadın metaforasını iki ayrı fonda görə bilirik:

— insani mahiyyət daşıyan qadın obrazı;

— insandan cansız aləmə transformasiya olunan qadınlıq.

Hər ikisinin ortaq cəhəti qadınlıq konsepsiyası və onun qadında əks olunan mənəvi-sosial səciyyəsidir. Belə ki, ilk əfsanədə qadın-kişi, ikinci əfsanədə isə ailədaxili mübahisə fonunda

qadının məruz qaldığı çətinlik və ətrafın onun üçün təyin etdiyi müəmmalı aqibətin şahidi oluruq. Günəş qadının yüksək ali dəyərlərini özündə cəm edir və bir daha Ay ilə bir yerə gəlmir.

Şifahi xalq ədəbiyyatında Günəş və Ayın obrazlaşdırılmasının tarixi olduqca qədimdir. Bu hal isə bədii-şifahi düşüncədə qadının mənəvi-psixoloji mahiyyətinin aşkarlanmasında geniş və intəhasız bir rola sahibdir. Deyə bilərik ki, hətta erkən dövrlərdə əcdadlarımızın astral təsəvvürlərində Günəş daim qadını, qadınlığı və ona məxsus müxtəlif mənəvi-əxlaqi düşüncəni əks etdirmişdir.

*"Günəşlə Ay"* (6, s. 421-423) rəvayətində Günəş çox gözəl, incə, təravətli, odlu gözləri ilə aləmə şəfəq saçan bir qız imiş. Ay isə həqiqətən gözəl, işıqlı sifəti ilə aləmə nur saçan bir oğlan. Lakin Günəşin göz qamaşdıran şəfəqləri qarşısında Ay dayana bilmirdi. Ay Günəşi odlu məhəbbətlə sevirdi. Günəş isə gözəlliklər məkanı olan Yeri sevirdi. Yer də Günəşlə nəfəs alır, onsuz bir gün belə yaşaya bilmirdi. Günəş hər səhər al şəfəqli saçlarını Yerin üzərinə səpir, odlu nəfəsi ilə onu isidirdi. Yer də səhərin açılmasını intizarla gözləyir, sevgilisinin simasını görməyə tələsirdi. Günəş, Ayın onu sevdiyindən xəbərdar idi. Lakin bu qaranlıqlar padşahı ilə öz arasında heç bir uyğunluq görmür, Aya qarşı laqeyd münasibət göstərirdi. Ay isə asanlıqla məğlub olmaq istəmirdi. Bir gün Günəş öz şəfəqlərini Yerin üstündən yığışdırıb, Yerlə xudahafizləşərək öz obasına gedirdi. Yolda Ay ona çatdı, Günəşi odlu məhəbbətlə sevdiyini bildirdi. Günəşin onu rədd etməsindən qəzəblənən Ay hiyləyə əl ataraq Günəşin qolundan tutub özünə tərəf çəkdi. İşi belə görən Günəş Yerə tərəf əyildi. Yer isə ona bir ovuc çirkab uzatdı. Günəş çirkabı ayın üzünə çırpdı. Ay gözlərini yumaraq ömürlük qaranlığa çəkildi. Bu səbəbdən Ayın üzündəki ləkə o gündən qalmışdır.

*"Günəşlə Ay"* (6, s. 423-424) adlı başqa bir rəvayətdə isə öz gözəlliyi ilə öyünən Günəş çox məğrur bir qız idi. Göy üzünə səpələnən ulduzlar onun pişvazında durar, yolunu həsrətlə gözləyərdilər. Lakin bu məğrur qız yolunu gözləyənlərin çox olduğunu gördükcə daha da məğrurlaşır, gözləri sevinc odu saçırdı. Bu alova dözməyən ulduzlar yanıb külə dönür, Günəşin çıxması ilə yox olurdular. Lakin məhəbbət onları ölməyə qoymurdu, onlar yenidən dirilib dünyaya gəlirdi Günəşi ulduzlardan çox Ay maraqlandırırdı. Çünki o, tək idi, bəzən öz məhəbbətini Günəşə bildirmək üçün ikiyə bölünər, bədənini parça-parça edərdi. Bəzən də həsrətdən o qədər incələrdi ki, Günəşin özü də onu görəndə xəcalət çəkib, üzünə pərdə (bulud) tutub gizlənərdi. Bir gün Ay Günəşin görüşünə gedir. Günəş Ayın gözəlliyini görərkən həsəddən qəlbi çırpınır, onu sevən oğlanın ondan daha gözəl olduğunu görüb xəyala dalır və deyir:

— Əgər məni ürəkdən sevirsənsə üzündəki qara xalı dırnağınla qoparıb mənə ver, mən onu öz ovcumda görmək istəyirəm. Ay heç nə düşünmədən sevgilisinin əmrini yerinə yetirir. Ayın üzünü qan bürüyür. Bu zaman Günəş qəh-qəhə çəkib gülür. Ayın fədakarlığına cavab olaraq deyir: - Sənin gözəlliyin o xalda idi, onu da qopartdın, indi dünyanın ən gözəli mənəm. Günəşin bu sözü Ayı təəccübləndirir, onun üzünə tökülən qan sifətində donur. Elə o vaxtdan Ayın üzündə ləkə qalır.

Belə qənaətə gələ bilərik ki, astronomik hadisələrlə bağlı rəvayətlərdə qəbul olunmuş düşüncə ondan ibarətdir ki, Günəş mahiyyət etibarilə qadın və qadınlığı təmsil edir. Bununla əlaqəli nümunə gətirilən hər iki rəvayətdə də aydın şəkildə nəzərə çarpır ki, Günəşdə təzahür olunan xüsusiyyətlər qadın obrazının metaforik təcəssümüdür. Lakin rəvayətlərin məzmununda oxşarlıq olsa da, Günəş obrazlarının daşıdığı qadınlıq konsepsiyasında fərqləndirə biləcəyimiz xarakterik xüsusiyyətlər vardır. Belə ki, ilk rəvayətdə Günəş Ay qarşısında bir qədər aciz və onun istəklərinə ram olmaq istəməyən, Yerə saf sevgi hissi ilə bağlanan, qadının müsbətyönlü dəyərlərini özündə cəm edən obrazdır. İkinci rəvayətdə təsvir olunan Günəş isə qıs-

qanclıq duyğusu ilə alışıb yanan, bu uğurda səhv addım ataraq Ayın ona qarşı olan saf sevgisindən sui-istifadə edən qadın yaradılışının mənfi yönlərini özündə birləşdirən bir obrazdır.

Nümunə gətirilən rəvayətlərdə də iştirak etmiş iki fərqli Günəş obrazına aid fəaliyyət prinsiplərinə də rast gəlirik. İlk rəvayətdə Günəş qadının əlçatmaz və doğru olmayan münasibətdən uzaqlaşmağa çalışan obrazında çıxış etsə də, ikinci rəvayətdəki Günəş qadının bir o qədər təhlükəli və istismaredici xüsusiyyətlərini özündə ehtiva edir.

Günəşin obrazlaşdırılıb qadınlığı ifadə etməsinə diqqət etsək, onda qadın obrazının hansı duyğu və düşüncələrinin cəmləndiyini və ona qadının hansı xüsusiyyətlərinin aşılandığını görmək olar. Belə ki, "Günəş" yarada bilir, möhkəmliyi, daimiliyi və istiliyi təmsil edərək qadına aid xüsusiyyətləri bu şəkildə metaforalaşdırır.

Digər bir mifik obraz isə "Su" dur. Su bəşəriyyətin başlanğıcından etibarən var olan, mövcud dünyamızın böyük bir hissəsini təşkil edən ən ümdə qaynaqlardandır. Hətta ilk insanın yaranmasında belə onun rolu olmuşdur. "Yel və Gün" adlı mətndə (5, s. 133) isə Yel və Gün adlanan iki qardaşın istəyini nəzərə alan, onlara yardım edən Su-Sən adlı mif olur və o qadını təmsil edir. Su-Sənin ağıllı planı ilə onlar analarına qovuşurlar. Burada obrazlaşdırılan və qadın fonunda təqdim olunan "Su" ağlı, düşüncəni, mübarizəni təmsil edir. "Yer-su" adlı mətndə isə (5, s. 134) Su tanrılıq funksiyasını icra edərək, Ağ ana libasında çıxış edir və öz hamilik səlahiyyətini yerinə yetirir. Qadınlıqla bağlı ilkin metaforik təcəssüm hər iki əsatirdə də Su vasitəsilə vasitəsilə verilir. Buradakı mental proseslər Su ilə bağlı olub "Su"ya qadının yardım etmək, yardımçı olmaq və himayə edə bilmək xüsusiyyətləri köçürülmüşdür. Qədim Türk mifologiyasında Yer-Su (Yer-Sub) obrazı da mövcud olmuşdur-həmin obrazın funksiyası müəyyən qədər Tanrı-Umayın ilahi funkasiyasına uyğundur (2, s. 14).

Qadına aid olan xüsusiyyətlərin aşılandığı digər mifik obraz isə "Yer" yəni "Torpaq"dır. Yaşadığımız dünyada bütün mövcudluq yer ilə bağlıdır. Bizi əhatə edən ətraf aləm, canlı təbiət, yediyimiz qidalar, hətta biz özümüz belə torpağın məhsuluyuq. Məsələyə bioloji nöqteyi-nəzərdən yanaşdıqda torpaqda mövcud olan bütün mineralların və vitaminlərin eynilə insan orqanizmində də olduğunu görmək olar. Tək türkdilli yox, dünya xalqlarının folklor mətnlərinə nəzər saldıqda da "Yer"in qadını təmsil etdiyi qənaətinə gəlmək olar. Antik dünya folkloruna əsasən, Göy allahı Ura və onun arvadı Yer allahı Geyanın izdivacından Titanlar doğulur. Qəddar ata, öz oğul və qızlarına nifrət etdiyi üçün övladlarını Yerin altında gizlədir. Yer ana övladları üçün mübarizə aparır. Hətta sözügedən mifoloji düşüncəyə görə təkcə antik allahlar yox, hətta bütün insanlıq da Geyadan, yəni Yer anadan dünyaya gəlmişdir (1, s. 9). Yer adlı mifik obraza da qadına aid olan doğum instikti, mübarizə əzmi, qorumaq intuitsiyası köçürülmüş, qadın metaforası bu şəkildə təzahür edilmişdir.

Freyd insan zehninin topoqrafik modelini verərkən onun üç qatdan ibarət olduğunu söyləyərək, aysberqə bənzətmişdir (10, s. 35-39). Bu modeldə ən alt qat şüuraltı hesab olunurdu və insanın psixologiyası haqqında çox az məlumat verə bilirdi. Obrazlaşdırılmış Günəşi, Suyu, Yeri Freydin bu aysberq bənzətməsindəki modelin ən alt qatı, qadınlığın ilkin başlanğıcı və insan psixikasının ilk metaforik əksi hesab etmək olar. Çunki ədəbi mətlərdə Günəş, Su və Yer qadınlığın ilkin əlamətlərini, onun gücünün ilk göstəricilərini və şüurunun xaotik şəkildə də olsa, təsvirini özündə əks etdirə bilir. Qadına aid olan fiziki və psixi fəaliyyətlərin sözügedən mifik obrazlara köçürülməsinin yəni, metaforik təcəssümünün şahidi oluruq. Bu şəkildə idraki yerdəyişmə Lakoff və Johnsonun metaforanın sadəcə dildə deyil, düşüncə və hərəkətlərdə də təzahür olunması fikrinin (12, s. 3) bariz nümunəsi sayıla bilər.

Qeyd etmək istərdik ki, təhlilə cəlb olunmuş istər arxaik totemistik görüşlərlə bağlı olan, türk estetik düşüncəsinin mifologiyaya qədərki erkən yüksəliş mərhələsi, istərsə də türk etno-

sunun müəyyən tərəqqi meylinə yetməsi, özünəməxsus ərazi hüdudunu müəyyənləşdirməsi, kifayət qədər etik-estetik düşüncəyə yiyələnməsinin sonrakı dövrdən başlayan mərhələsinə aid olan şifahi xalq ədəbiyyatına məxsus olan mətnlərdə "qadınlıq" daim diqqət mərkəzində olmuş və günümüzə qədər davam edən araşdırmaların tədqiqat obyekti kimi çıxış etmişdir. Tədqiqatda adları çəkilən "Günəş", "Su", "Yer"-in timsalında təcəssüm olunan "qadın-mif, qadın-obraz" anlayışlarının araşdırılması zamanı psixi determinizm nəzəriyyəsində hakim olan "səbəb-nəticə" əlaqəsi yolu ilə cəmiyyətin etik-idraki düşüncələrinin qadın obrazlarına köçürüldüyünün şahidi oluruq.

Sonda belə qənaətə gələ bilərik ki, tədqiqatımızn araşdırılma obyektinə çevrilmiş qadın mif/obrazlarında təcəssüm olunan xarakterik cizgilər cəmiyyətin estetik idealının metaforik təzahürləridir.

**Məqalənin aktuallığı.** Günümüzdə xalq ədəbiyyatı nümunələrində qadın obrazlarının psixososial semantikasına səthi yanaşılmış və bu sahədə araşdırmaların əksəriyyəti digər ölkələrdə həyata keçirilmişdir. Bu səbəbdən şifahi xalq ədəbiyyatı nümunələri əsasında qadınının psixoxsosial göstəricilərinin psixoanalitik aspektdən təhlil olunması tədqiqatın aktuallığı hesab oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Şifahi xalq ədəbiyyatı incəsənət nümunələrinə aid olsa da, psixoanalizm elmlərin ictimai-sosial qütbünə aiddir. Bu səbəbdən humanitar və sosial elm sahələrinin əfsanələrdəki qadın obrazları fonunda qarşılıqlı əlaqəsini araşdırmaq tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat ədəbiyyatdakı qadın obrazlarının psixi hallarının öyrənilməsi və psixoanalizmin ədəbiyyat sferasında araşdırılması yönündən praktiki əhəmiyyətə malikdir. Araşdırma istər sosial, istərsə də ədəbi elm sahələrində tədris materialı kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Antik ədəbiyyat antologiyası. Tərtibçi: Əli Sultanlı. Bakı, Avrasiya Press, 2006, 496 s.
2. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı, AzAtaM, 2004, 322 s.
3. Qarayev S. Türk Mifoloji Düşüncəsində Dünyanın Yaradılışı (Monomifolojı Baxımdan Xaos-Kosmos). Motif Akademi Halkbilimi Dergisi. Azerbaycan Özel Sayısı-II, 2011 iyul-dekabr, 180-186 s.
4. Qurbanov Nail Məhəbbət oğlu. Azərbaycan folklorunda mifoloji-kosmoqonik görüşlər (filol. üzrə fəls. d-ru a. dər. al. üçün təq. ol. dis.: 10.01.09 AMEA, Nizami ad. Ədəbiyyat İn-tu), Bakı, 2011.- 140 s
5. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı (I kitab). Bakı, Çıraq, 2009, 638 s.
6. Pirsultanlı S. P. Azərbaycan türklərinin xalq rəvayətləri. Bakı, 2011, 667 səh.
7. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri. Azərnəşr, Bakı, 2009, 485 s.
8. Çiçekler Ahmet Naim, Aydın Timur. Kavramsal metafor kuramı ve belagat: karşılaştırmalı bir inceleme. Kırklareli Üniversitesi: RumeliDE Journal of Language and Literature Studies, 2019, 14-26 s.
9. Jung Carl Gustav. Anılar, Düşler, Düşünceler (çev. İris Kantemir), İstanbul: Can Yayınları, 2017, 336 s.
10. Freud Sigmund. An Outline of Psychoanalysis. London: The Hogarth Press, 1949, 127 p.
11. Jung carl Gustav. Analytical Psychology. London: Forgotten Books, 2018, 418 p.
12. Lakoff George, Johnson Mark. Metaphors We Live By. University of Chicago, 1980,

242 p.

13. Stambovsky Phillip. The Depictive Image: Metaphor and Literary Experience. Amherst: University of Massachusetts Press, 1988, 156 pp.

14. Б. Ролан. Мифологии. Москва: Академический проект, 2008, 351 с.

15. К. Богда́нов, Панченко Александр. Мифология и повседневность, Вып. 2. Материалы научной конференции, СПб, 1999, 573 с.

16. Хюбнер К. Истина мифа. Москва:: Республика, 1996, 448 с.

**А.В. Алиева**

## Женская метафора в раннем мировоззрении

## Резюме

На протяжении всей истории женщины всегда были в центре внимания, а со временем многие из них стали объектом исследования и изучения. Основываясь на выводах критиков, можно сказать, что превзойти Восток, сделать Европу единственным объектом изучения среди цивилизованных народов, что свидетельствует об одностороннем подходе, который ошибочен. С этой точки зрения, в нашем исследовании в архаичных фольклорных текстах на тюркском языке, особенно в мифах и верованиях, используется метафора женщин, которые будут вовлечены в психосоциальные исследования.

**A.V. Aliyeva**

## Female metaphor in the early worldview

## Summary

Throughout history, women have always been the center of attention, and over time, many has become an object of research and study. Based on the findings of the critics, it can be said that to be superior to the East, to make Europe the only object of study among the civilized nations. This is an indication of a one-sided approach that is wrong. From this point of view, in our study, in the Turkic-language archaic folklore texts, especially in myths and beliefs, metaphors related to women are used. They will be involved in psychosocial research.

**Redaksiyaya daxil olub:** 24.04.2021